# Türk Birliyinin dünya iqtisadiyyatında çəkisi artır

## *Beynəlxalq dəhliz və kəmərlər bu ölkələrin qlobal önəmini yüksəldir*



**Türk Dövlətləri Təşkilatının (TDT) 2009-cu ildə Naxçıvan şəhərində keçirilən Zirvə görüşündən indiyədək qurum səmərəli inkişaf yolu keçib. Ötən müddətdə TDT 160 milyona yaxın insanın yaşadığı böyük bir coğrafiyada və qlobal miqyasda güclü təşkilat kimi tanınıb. Prezident İlham Əliyev TDT ölkələri ilə bütün sahələrdə əlaqələrin möhkəmləndirilməsini Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri elan edib.**

**(ardı 10-cu səhifədə)**

**(əvvəli 1-ci səhifədə)**

Türkdilli ölkələr arasında əməkdaşlığın dərinləşdirilməsi məqsədilə yaradılan və hazırda nüfuzlu beynəlxalq platformaya çevrilən bu təşkilatın əsas məqsədi ortaq dil, tarix, mədəniyyət və ənənələr əsasında siyasi, iqtisadi, mədəni və sosial sahələrdə inteqrasiyanı gücləndirməkdir. Azərbaycan bu təşkilatın əsas qurucu üzvlərindən biri kimi onun inkişafında mühüm rol oynayır.

Xatırladaq ki, TDT 2009-cu il oktyabrın 3-də qurumun “Naxçıvan müqaviləsi” əsasında Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə tərəfindən təsis edilib. Daha sonra Özbəkistan və 2023-cü ildə Türkmənistan müşahidəçi kimi təşkilata qoşulub. Prezident İlham Əliyevin sözləri ilə desək, bu təşkilatın təməli təbii müttəfiqlər tərəfindən qoyulub və bu zaman tarix, mədəniyyət və ənənə amili diqqətdə saxlanılıb.

TDT-nin təşəbbüsü ilə yaradılan bir sıra qurumlar üzv ölkələr arasında iqtisadi əməkdaşlığı davamlı olaraq gücləndirib. Məsələn, 2019-cu ildə təsis olunan Türk Ticarət və Sənaye Palatası üzv dövlətlərin iş adamları və ticarət qurumları arasında körpü rolunu oynayıb. Hər üzv dövlətin 100 milyon ABŞ dolları töhfə verməsi ilə yaradılan və 2024-cü ildə fəaliyyətə başlayan Türk İnvestisiya Fondu qarşısına regional layihələrə dəstək vermək, biznes mühitini stimullaşdırmaq və ortaq iqtisadi güc formalaşdırmaq kimi məsələlər mühüm vəzifələr kimi qoyulub. Bundan başqa TDT-nin Sadələşdirilmiş Gömrük Dəhlizi layihəsi isə üzv ölkələr arasında malların sərbəst və sürətli hərəkətini gerçəkləşdirmək məqsədi daşıyıb.

Azərbaycan TDT-yə üzv ölkələrin iqtisadi əməkdaşlığının gücləndirilməsi istiqamətində bir sıra təşəbbüslərlə çıxış edib:

***– 2024-cü ildə Şuşada keçirilmiş Türk Dövlətləri Biznes Forumu çərçivəsində Qarabağın iqtisadi potensialı təqdim olunub;***

***– Orta Dəhliz layihəsində əsas tranzit ölkə kimi iştirak edən Azərbaycan, Bakı – Tbilisi – Qars dəmir yolu və Ələt Beynəlxalq Dəniz Ticarət Limanı ilə inteqrasiyanın əsas halqasına çevrilib.***

***Bu məqamda onu da qeyd edək ki, energetika sahəsində əməkdaşlıq da TDT-nin prioritet istiqamətlərindən biridir. Belə ki:***

***– Xəzər dənizi üzərindən Mərkəzi Asiya ölkələrinin neft və qaz ehtiyatlarının Azərbaycan vasitəsilə Avropaya daşınması üzərində işlər aparılır;***

***– Bərpaolunan enerji sahəsində əməkdaşlıq çərçivəsində “yaşıl” enerji layihələri təşviq olunur;***

***– Orta Dəhliz vasitəsilə multimodal nəqliyyat sistemlərinin yaradılması üçün strateji infrastruktur yatırımları davam edir.***

Yeri gəlmişkən, təşkilata üzv ölkələr arasında təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlıq yeni mərhələyə keçib. “Qardaş yumruğu” kimi ortaq hərbi təlimlər təşkilat üzvləri arasında müdafiə sahəsində koordinasiyanın göstəricisi kimi diqqətdə saxlanılıb. Türkiyə ilə müdafiə sənayesi sahəsində əməkdaşlıq çərçivəsində Azərbaycan qabaqcıl hərbi texnologiyaların tətbiqinə üstünlük verib.

Hazırda 2023-cü ildə qəbul edilən TDT-nin Rəqəmsal Transformasiya üzrə Yol Xəritəsi çərçivəsində üzv ölkələr arasında “e-hökumət”, rəqəmsal iqtisadiyyat və kibertəhlükəsizlik sahəsində əməkdaşlıq da genişləndirilir. Transxəzər rəqəmsal magistral layihəsi çərçivəsində fiber-optik şəbəkələrin fəaliyyəti ilə üzv dövlətlər arasında məlumat axını asanlaşır.

Azərbaycan Türk Dövlətləri Təşkilatında həm təşəbbüskar, həm də strateji mövqe tutan bir ölkə kimi çıxış edir. İstər iqtisadi layihələrdə, istər təhlükəsizlik əməkdaşlığında, istərsə də rəqəmsal transformasiya və mədəni dəyərlərin qorunmasında Azərbaycanın rolu təşkilatın güclənməsinə mühüm töhfə verir. Bütün bunlar isə TDT-nin gələcəkdə daha da genişlənərək Türk dünyasının qlobal aktor kimi çıxış etməsinin gerçəkləşəcəyini və bu istiqamətdə Azərbaycanın rolunun həlledici olacağını deməyə əsas verir.

Azərbaycan lideri TDT-nin fəaliyyəti daim yüksək dəyərləndirib. Dövlətimizin başçısı ötən il fevralın 14-də yenidən ölkə Prezidenti seçilməsi münasibətilə keçirilən andiçmə mərasimindəki çıxışında TDT-yə üzv bütün ölkələrlə qardaşlıq münasibətləri olduğunu və dövlət siyasətimizin bu təşkilatı gücləndirmək məqsədi daşıdığını bildirib. Prezident İlham Əliyev daha sonra vurğulayıb: “İslam Əməkdaşlıq Təşkilatı da həmişə – həm işğal dövründə, həm işğaldan sonra, həm də İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı zamanı və ondan sonra Azərbaycanın yanında olub. Azərbaycan bu təşkilatın dəyərli üzvüdür”.

Bu, Prezident İlham Əliyevin Türk dünyasına verdiyi xüsusi önəmin, türk dövlətləri ilə əməkdaşlığın Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən olmasının, həmçinin türk birliyi və həmrəyliyinin, TDT-nin bundan sonra da inkişaf edərək möhkəmləndirilməsinə əminliyin parlaq ifadəsidir.

Qeyd edək ki, Vətən müharibəsindən dərhal sonra qarşıya düşməndən təmizlənən torpaqlarda yaşayış məntəqələri salmaq, kənd təsərrüfatına yararlı sahələri minalardan təmizləyərək rəqəmsal və ən müasir təcrübə və texnologiyalara əsaslanan dayanıqlı kənd təsərrüfatı sistemi qurmaq kimi önəmli bir vəzifə qoyulub. TDT ölkələrinin iş adamlarında dost təəssübkeşliyinə əsaslanaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında investisiya imkanları ilə tanış olmaq və bu coğrafiyada ən yaxşı təcrübə və texnologiyaları tətbiq etmək marağı da buradan irəli gəlib.

Hazırda Azərbaycan dövlətinin gələcəyə yönələn əsas hədəfi işğaldan azad olunan əraziləri bərpa edərək həmin torpaqların dəyər zəncirinə inteqrasiyasını təmin etməkdir. Bu gün düşməndən təmizlənən yaşayış sahələri rində böyük miqyasda bərpa-quruculuq işləri aparılır, minalar təmizlənir, yeni yollar, “ağıllı şəhər” və “ağıllı kənd”lər salınır. TDT-yə üzv ölkələr, xüsusilə, qardaş Türkiyə tərəfindən bu prosesdə fəal iştirak etmək diqqətdə saxlanılır.

TDT-nin Azərbaycana etimadı, diqqəti həm də respublikamızın dünya ölkələri üçün hazırda prioritetə çevrilən iqlim dəyişikliyi, su və torpaq ehtiyatlarının azalması, yüksək səviyyəli urbanizasiya kimi problemlərlə üzləşdiyi bir vaxtda respublikamızın bu çağırışlara biganə qalmaması ilə əlaqədardır. Çünki TDT üzv ölkələrdə, eləcə də Azərbaycanda yeni texnologiya və həllərin tətbiqi istiqamətində təcrübə mübadiləsi aparmaqla dayanıqlı inkişafa maraqlıdır.